

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (22.951)

28 fevral 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 424 MVt gücündə Mingəçevir Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak edib.

Dövlətimizin başçısı Mingəçevir Su Elektrik Stansiyasını əsaslı yenidənqurmadan sonra işə salıb.

* * *

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir şəhərinin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimində iştirak edib.

* * *

Həmin gün Prezident İlham Əliyev Mingəçevir şəhərinin elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, Mingəçevir-Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə yenidən qurulan 26 kilometrlik Aran-Qarağacı hissəsinin, Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin, Mingəçevirdə "ASAN Həyat" kompleksinin açılışlarında iştirak edib.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin fevral ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2018-ci il 3 fevral tarixli qərarları ilə "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda və "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişikliklər edilmiş, "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların əməkhaqlarının maliyyələşdirilməsi Qaydası" və "Naxçıvan Muxtar Respublikasında məktəbəqədər təhsil müəssisələrinə qəbul Qaydası" təsdiq edilmişdir. Sonuncu Qaydaya əsasən məktəbəqədər təhsil müəssisəsinə 1 yaşdan 6 yaşadək (6 yaş daxil olmaqla) uşaqlar qəbul edilirlər.

Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 7 fevral tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında məktəbəqədər təhsil sahəsində təhsilverənlərin tibbi müayinədən keçməsi Qaydası" və 12 fevral tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi haqqında Əsasnamə" təsdiq edilmişdir. Müvafiq Əsasnaməyə görə, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi maliyyə və mühasibat işçilərinin peşə hazırlığının təkmilləşdirilməsini və yenidən hazırlanmasını həyata keçirir, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektlərində işləyən mühasibat işçiləri tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsinə dair biliklərin əldə olunması üzrə təlimlər təşkil edir və onları müvafiq sertifikatla təmin edir.

Bundan başqa, Nazirlər Kabinetinin 2018-ci il 19 fevral tarixli qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli 117 nömrəli qərarında dəyişikliklər edilmiş, 21 fevral tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasında 2018-ci il 1 yanvar vəziyyətinə torpaqların növləri, istifadəçiləri və mülkiyyətçiləri üzrə torpaq balansı təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrasına uyğun olaraq fevralın 27-də muxtar respublikanın Dövlət Baytarlıq Xidmətində Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Baytarlıq təbabəti ixtisasında təhsil alan tələbələri ilə görüş keçirilib.***

## Tələbələr Dövlət Baytarlıq Xidmətində olublar

Tələbələr xidmətin iş prosesi ilə tanış olublar. Əvvəlcə xidmətin tədris sinfində tələbələrə əyani olaraq heyvanların anatomik quruluşu izah olunub. Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin əməkdaşı Şəmsəddin Nağıyev tələbələrə "Baytarlıqda laboratoriya işinin təşkili" mövzusunda mühazirə oxuyub.

Mərkəzin direktoru Qadir Fərhadov süni mayalanma istiqamətində görülən işlər və bu sahədə son dövrlərdə əldə olunan nailiyyətlərdən danışıb. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 22 fevral tarixli Sərəncamı muxtar respublikada süni mayalanma işinə təkan verəcək, heyvandarlığın inkişafına şərait yaradacaq.

Sonra tələbələr baytarlıq vasitələri ilə əyani tanış olublar, süni mayalanma avadanlıqlarına və laboratoriyadakı müayinə-müalicə vasitələrinə, cərrahi əməliyyat otaqlarına baxıblar.

Sonda Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov muxtar respublikada keyfiyyətli baytarlıq xidmətinin təşkili barədə məlumat verib.

**Ramiyyə ƏKBƏROVA**

## Daşınmaz əmlakın qeydiyyatı sadələşdirilib

Muxtar respublikamızda vətəndaşların rahatlığının təmin edilməsi məqsədilə dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanı ilə mərkəzi icra hakimiyyəti orqanlarının qarşısında elektron xidmətlərin təşkili üçün konkret vəzifələr qoyulmuş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə aidiyyəti qurumlara müvafiq xidmətlərin səyyar qaydada göstərilməsinin təmin edilməsi tapşırılmışdır.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən əhaliyə göstərilən xidmətlərin daha rahat şəkildə əldə edilməsi, vətəndaş məmnuniyyətinin təmin olunması daim diqqət mərkəzində saxlanılır. Son illərdə komitənin fəaliyyət istiqamətləri üzrə xidmətlərin elektronlaşdırılması və səyyar qaydada vətəndaşlara çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülmüş, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyəti və səmərəliliyi artmışdır.

Hazırda komitə fiziki və hüquqi şəxslərə daşınmaz əmlak və torpaqla bağlı 27 növdə elektron, 5 növdə səyyar xidmət göstərir. Elektron xidmətlər Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalı (*www.e-hokumet.nmr.az*) və komitənin internet saytı (*www.emlak.nakhchivan.az*) vasitəsilə istifadəçilərə təqdim olunur. Bu isə vətəndaşlara harada olmasından asılı olmayaraq, istənilən vaxt təklif olunan xidmətlərdən istifadə imkanı yaradır. Hüquqi və fiziki şəxslər internetin mövcud olduğu hər yerdən komitənin elektron xidmətlərindən istifadə etməklə rahatlıqla daşınmaz əmlak və torpaqla bağlı xidmətlərdən yararlana bilərlər.

Komitə tərəfindən göstərilən elektron xidmətlərin böyük bir qismi daşınmaz əmlaka dair əməliyyatların aparılması ilə bağlıdır. Daşınmaz əmlakın dövlət reyestrindən məlumatların, mülkiyyət hüququnu təsdiq edən çıxarışların verilməsi, daşınmaz əmlak obyektləri barədə kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi, ünvanların və ünvanla bağlı müxtəlif məlumatların verilməsi, daşınmaz əmlakın ipotekasının və lizinqinin dövlət qeydiyyatı, dövlət qeydiyyatının ləğvi, daşınmaz əmlaka dair texniki sənədlərin tərtib edilməsi vətəndaşların daha sıx müraciət etdiyi xidmətlər sırasındadır. Torpaq kadastr məlumatları barədə arayışların verilməsi, kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi, geodeziya işlərinin həyata keçirilməsi, müxtəlif xəritə və atlasların tərtibatı, yerquruluşu işlərinin, torpaq və geobotaniki tədqiqatların aparılması ilə bağlı xidmətlər isə torpaq məsələləri sahəsində lazımi əməliyyatların qısa müddət ərzində və rahatlıqla yerinə yetirilməsi üçün geniş imkanlar yaratmışdır.

Komitə tərəfindən göstərilən elektron xidmətlərə 2017-ci il ərzində 297 müraciət daxil olmuş və icrası təmin edilmişdir. Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün 86, daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üzrə 104, daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi ilə bağlı 77, daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün 23, daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün 4, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması ilə əlaqədar 3 hüquqi və fiziki şəxsə xidmət göstərilmişdir. Xidmətlər üzrə tələb olunan dövlət rüsumunun və xidmət haqqının elektron formada ödənilməsi təmin olunmuşdur.

Daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində operativliyin və səmərəliliyin artırılması məqsədilə muxtar respublikanın kənd yaşayış məntəqələrində komitənin fəaliyyət istiqamətləri üzrə əhaliyə səyyar qaydada xidmətlər də göstərilir. Bu məqsədlə xüsusi avtomobil ayrılmış, müasir geodeziya-ölçmə alətləri, avadanlıqlar və POS-terminalla təchiz olunmuşdur.

Səyyar xidmətin səmərəli təşkili üçün xidmət göstəriləcək kənd yaşayış məntəqələri üzrə əvvəlcədən təsdiq olunmuş qrafik vətəndaşların məlumatlandırılması üçün komitənin internet saytında yerləşdirilir, yaşayış məntəqələrində əvvəlcədən elanlar və xidmətlər üzrə tələb olunan sənədlərin siyahısı vurulur, əhali ilə maarifləndirici söhbətlər aparılır. Səyyar xidmət zamanı ahıl və sağlamlıq imkanları məhdud vətəndaşlara evlərində xidmət göstərilir.

İndiyədək komitənin səyyar xidmət qrupu tərəfindən 3500-dən artıq vətəndaşın müraciətinə müvafiq qaydada baxılmış və icra edilmişdir. 20-yə yaxın ahıl və sağlamlıq imkanı məhdud şəxsə evində xidmət göstərilmişdir. 56 torpaq sahəsinin, 27 fərdi yaşayış evinin ilkin qeydiyyatı aparılmış, 22 dublikat sənəd hazırlanmışdır. Hüquqların təkrar qeydiyyatı ilə bağlı 805 müraciət icra edilmiş, 2129 halda əvvəllər yaranmış mülkiyyət hüquqlarına dair sənədlər dövlət reyestrindən çıxarışla əvəz olunmuşdur. Məhdudiyyət və yüklülüyə dair 564 arayış hazırlanaraq vətəndaşlara təqdim edilmişdir.

Hazırda komitənin fəaliyyət istiqamətləri üzrə yeni elektron xidmətlərin istifadəyə verilməsi və səyyar qaydada göstərilən xidmətlərin artırılması ilə bağlı işlər davam etdirilir. Məqsəd muxtar respublikamızda əmlak və torpaq məsələləri ilə bağlı müraciətlərin icrasını şəffaf, çevik və səmərəli şəkildə təmin etməklə əhalinin rahatlığının yüksəldilməsinə töhfə verməkdir.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Yeni müəssisə yaradılır

*"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının "Cahan Pen" Məhdud Məsuliyyətli Cəmiyyətinin plastik boru, profil və aksesuarlar istehsal edəcək yeni müəssisəsində artıq son tamamlama işləri görülür, avadanlıqlar quraşdırılır.*

Müəssisədə istehsal olunacaq məhsulların daxili tələbatı ödəməklə yanaşı, Müstəqil Dövlətlər Birliyi ölkələrinə ixrac olunması da planlaşdırılır.

Qeyd edək ki, istehsal müəssisəsinin inşasına 2017-ci ildə başlanılıb, 2018-ci ilin mart ayının əvvəllərində istifadəyə verilməsi planlaşdırılır. Burada Türkiyə, Çin və Tayvan istehsalı olan tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılır. Müəssisədə 38 istehsal sahəsi və müasir laboratoriya istifadəyə veriləcək. Laboratoriyada məhsulun keyfiyyəti, zərbəyə davamlılığı və digər parametrlər analiz olunduqdan sonra satışa buraxılacaq. Gücü ayda 1500 ton olacaq müəssisədə qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su, eləcə də polietilen suvarma boruları, lambir, saydinq və aksesuarlar, müxtəlif boru fitinqləri olmaqla, 7 növdə və 160 çeşiddə məhsul istehsal olunacaq. Müəssisə tam fəaliyyətə başlayandan sonra burada 285 yeni iş yeri açılacaq.

İstehsal obyektinin yaradılmasında "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının 7 milyon vəsaiti və Sahibkarlığa Kömək Fondunun 5 milyon manat güzəştli kreditindən istifadə olunub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasında müasir rabitə sistemi yaradılıb



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Ali Məclis Sədrinin 2014-cü il 19 sentyabr tarixli Fərmanına əsasən isə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılmış, nazirliyin səlahiyyətləri daha da genişləndirilmişdir.*

Rabitə və yeni texnologiyaların tətbiqi məqsədilə reallaşdırılmış məqsədyönlü tədbirlər muxtar respublikanın hazırkı sosial-iqtisadi inkişafında bu sahənin rolunu daha da artırmışdır. Son illər muxtar respublikada əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, bu sahədə mühüm irəliləyişlər əldə olunmuşdur. Rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan avtomat telefon stansiyaları müasir tələblərə cavab verən yeni rabitə sistemi ilə əvəz olunmuş, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir. Muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 4 mərhələdən ibarət layihə artıq başa çatdırılmışdır. Belə ki, 4-cü nəsil telekommunikasiya xidmətlərindən yararlanmağa imkan verən NGN avadanlıqları istifadəyə verilmiş, telekommunikasiya şəbəkəsi üzrə sabit telefon nömrələri 7 rəqəmli nömrə planına keçirilmişdir. Hazırda istifadə olunan avtomat telefon stansiyalarının 86 faizini yeni nəsil texnologiyalar təşkil edir.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə imkan verir. Ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, Naxçıvanın tranzit telekommunikasiya imkanları genişlənmişdir. 2013-2014-cü illərdə muxtar respublikanın telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi üçün ümumi uzunluğu 242 kilometr olan Sədərək-Ordubad arası fiber-optik kabel magistral xəttinin tikintisi başa çatdırılmışdır. Naxçıvan-Babək-Culfa-Ordubad arası əsas və alternativ fiber-optik kabel xətləri üzərində hər biri 10 Gigabit/saniyə tutumlu IP MPLS şəbəkəsi qurulmuş, Naxçıvan-Şərur arasında da eyni əsaslı və tutumlu avadanlıq qurularaq istifadəyə verilmişdir.

Muxtar respublika üzrə fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1570 kilometrə yaxındır. Bu da muxtar respublikada rabitə əlaqələrinin kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Muxtar respublikada rabitə sahəsindəki sürətli inkişaf, fiber-optik kabel xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaratmışdır.

Hazırda "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti bir mərkəzi, yeddi filial və 169 poçt bölməsi ilə muxtar respublikada müasir poçt xidmətləri təqdim edir. Poçt məntəqələrində ənənəvi poçt xidmətləri ilə yanaşı, bütün növ xidmət haqlarının yığılması da təmin edilmişdir. "Naxçıvanpoçt" MMC-nin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması həyata keçirilir. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının smart sayğaclarla dəyişdirilməsi ilə poçt bölmələrində həmin kartların yüklənməsi işinin təşkili üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qurulmuş, Naxçıvan şəhərindəki poçt bölmələri yeni kompüter və kart oxuyucular ilə təmin edilmişdir. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq dağ kəndlərindəki poçt məntəqələrində pensiyaçıların istəklərinə uyğun olaraq pensiyaların ödənişinə başlanmışdır.



"Naxçıvanpoçt"un kommunal ödəniş sisteminin proqram təminatı daha müasir məlumat bazası əsasında qurularaq serverdə yerləşdirilmişdir. Məlumatların itkisinin qarşısının alınması məqsədilə gündəlik arxivləmə sistemi yaradılmış, ödəniş və müxtəlif qeydiyyat əməliyyatlarının aparılması üçün veb texnologiyası üzərində işləyən proqram təminatı qurulmuşdur.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Bu tələbatı ödəmək məqsədilə "Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi" yaradılmış, "Naxçıvanpoçt" MMC-nin rayon filiallarında elektron imza kartının verilməsi təşkil edilmişdir. Bundan əlavə, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində "İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" fəaliyyətə başlamışdır. "İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" üçün "Naxçıvanpoçt" MMC-nin *www.naxcivanpoct.az* internet saytında xüsusi bölmə yaradılmış, 225 qaynar xətti istifadəyə verilmişdir.

Ötən dövrdə İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, muxtar respublikanın internet resurslarının genişlənməsi ilə əlaqədar əlavə server avadanlıqları və irihəcmli məlumatların qəbulu və paylanması üçün şəbəkə avadanlıqları alınmışdır. Həmçinin İP ünvanların çatışmazlığı aradan qaldırılmış, Türkiyə Respublikasının "Türk Telekom" şirkəti ilə əməkdaşlıq protokolu imzalanmış və Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmişdir. Hazırda muxtar respublikaya daxil olan internet kanalının həcmi 8 Gigabit/saniyədir. Bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə mobil internet xidmətləri göstərilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar "Elektron hökumət" portalı üzərindən rabitə və internet xidmətləri, elektrik enerjisi, qaz və sudan istifadə haqlarının onlayn rejimdə ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmış və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür. "Bir pəncərə" prinsipi əsasında dövlət orqanlarının xidmətləri portala inteqrasiya edilmişdir. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 90-dan artıq dövlət təşkilatına və 12 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətlərinin Elektron Qeydiyyatı və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istismara verilmişdir. Bunun üçün idarələr arasında qapalı şəbəkə qurulmuş, mərkəzi server avadanlıqları alınmış və müvafiq proqram təminatı hazırlanaraq 96 təşkilatın sistemə qoşulması təmin edilmişdir.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" internet səhifəsi hazırlanaraq *imp.nakhchivan.az* domen adı verilməklə qlobal şəbəkəyə inteqrasiya olunmuşdur. Bundan əlavə, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" beynəlxalq tədbirinə həsr edilmiş yüz min marka, yüz min zərf və yüz ədəd buklet sifarişlə hazırlanıb, Naxçıvana gətirilmiş və tədavülə buraxılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Son illər bu istiqamətdə işlər daha da genişləndirilmişdir. Təhsil müəssisələrində kompüter dəstləri quraşdırılaraq internetə qoşulması təmin edilir. Həmçinin təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılmış, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilmiş, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslərin keçilməsinə başlanmışdır. Muxtar respublikanın təhsil müəssisələri və 18 muzey distant təhsil sisteminə qoşulmuşdur. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də Distant Tədris Mərkəzi yaradılmış, elektron kitabxana və "258" telefon xidməti üzərindən fəaliyyət göstərən audiokitabxana yaradılmışdır.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə muxtar respublikadakı ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilmişdir. Ötən dövrdə "Naxçıvan" Universitetində İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi yaradılmış, Naxçıvan Dövlət Universitetində daxili telekommunikasiya şəbəkəsi, simsiz internet sistemi, universitet televiziyası və radiosunun montaj-tənzimləmə işləri, təlim üçün avtomat telefon stansiyası, Texniki Kollecdə isə kompüter şəbəkəsi və 5 tədris sinfi qurulmuş, Naxçıvan Dövlət Texniki Kolleci və Şərur rayonundakı Fizika-Riyaziyyat Təmayüllü Liseyin hər birində bir ədəd interaktiv rəqəmsal lövhə quraşdırılmışdır. Hər il Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasının III və IV kurs tələbələrinin və Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası üzrə təhsil alan tələbələrinin nazirlikdə istehsalat təcrübəsi keçmələri təmin olunur.

Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilmiş ixtisasları üzrə təhsil alan tələbələrinin Çinin "Huawei" şirkətinin Şenjen şəhərindəki Yay Təlim Mərkəzində istehsalat təcrübəsində iştirakı təmin edilmişdir. 2016-cı ildə 6, 2017-ci ildə isə 12 tələbə Çinə istehsalat təcrübəsinə göndərilmişdir. Növbəti illərdə də tələbələrin İKT biliklərinin artırılması üçün müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

Müasir texnologiyaların tətbiqi muxtar respublika ərazisində DVB-T standartlı rəqəmli radio-televiziya yayımının təşkilinə də zəmin yaratmışdır. 2014-cü ilin dekabr ayından analoq televiziya yayımı dayandırılmış, 6 güclü və 44 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmli televiziya yayımına keçid təmin edilir. Hazırda bütün yaşayış məntəqələrində 12 televiziya və 10 radionun rəqəmli yayımı həyata keçirilir. Bundan başqa, Duzdağ Radio-Televiziya Verici Stansiyasında qurulan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya vericisi vasitəsilə Cənubi Qafqazda ilk dəfə olaraq DVB-T2 standartında 67 televiziya kanalının yayımına başlanılmış, Naxçıvan Dövlət Televiziyasının yüksəkkeyfiyyətli HD formatda efirə çıxışı təmin edilmişdir.

Naxçıvanda rabitə və yeni texnologiyaların inkişafı sahəsində görülən işlərin davamı olaraq 2016-cı il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. 4-cü nəsil mobil rabitə sistemi məlumatların alınması və ötürülməsi üçün özündən əvvəlki sistemlərlə müqayisədə daha yüksəksürətli və genişzolaqlı şəbəkələrə çıxış imkanına malikdir. Artıq ötən qısa müddət ərzində NAXTEL abunəçilərinin sayı 30 mini ötmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

*Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə keyfiyyətli poçt-rabitə xidmətləri göstəriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsinin, ölkədə tolerantlıq mühitinin formalaşdırılmasının, milli-mənəvi dəyərlərə qayğı siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər cəmiyyətin dini-mənəvi ehtiyaclarına son dərəcə diqqət və qayğı ilə yanaşmış, dövlət-din münasibətlərinin tarixi-milli ənənəyə və müasir hüquqi prinsiplərə uyğun olaraq tənzimlənməsinə, cəmiyyətdə vicdan azadlığının maneəsiz təminatına, dini-mənəvi, əxlaqi-etik dəyərlərin təbliğ və təşviq edilməsinə böyük əhəmiyyət vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ulu öndərimizin bu sahədəki fəaliyyətini uğurla davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan tolerantlıq məkanı kimi bütün dünyada böyük nüfuz qazanıb.***

## Dövlət-din münasibətləri uğurla həyata keçirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 28 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası Nümayəndəliyinin bazasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi yaradılıb. Bu dövlət orqanı böyük bir inkişaf yolu keçib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 dekabr tarixli Fərmanı ilə idarənin əsasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, 2017-ci il 28 dekabr tarixdə isə Agentliyin tabeliyində “Mənəvi dəyərlərin təbliği Fondu” yaradılıb.

Agentlik Naxçıvan Muxtar Respublikasında dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətlərinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında dini etiqad azadlığı təmin olunub. Muxtar respublikada mənəvi dəyərlərimiz qorunur, dini bayramlar yüksək səviyyədə qeyd edilir, ziyarətgahlar, məscidlər, məbədlər təmir və ya bərpa olunaraq dindarların istifadəsinə verilir.

Müstəqillik illərində muxtar respublikada 74 məscid tikilib, 95 məscid yenidən qurulub və ya bərpa olunub. Hazırda bir yeni məscidin tikintisi və 2 imamzadə binasında bərpa işləri davam etdirilir. Ümumilikdə, muxtar respublika ərazisində 211 məscid fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasında milli-dini ənənələri yaşatmaq, dini maarifləndirmə işini gücləndirmək, dini abidə və ziyarətgahları qorumaq və onlardan düzgün istifadə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura yaradılıb. Şura tərəfindən Naxçıvan Muxtar Respublikasında dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə tədbirlər görülür. Bununla yanaşı, Naxçıvan şəhərində və rayonlarda cənazələrin təmənnasız daşınması məqsədilə xüsusi cənazə avtomobilləri alınaraq istifadəyə verilib, qəbir yerlərinin və qəbirüstü abadlaşma tədbirlərinin qəbul olunmuş qaydalar daxilində həyata keçirilməsi təmin edilib. Muxtar respublika ərazisində qəbiristanlıqların yaşıllaşması və təmizliyi diqqətdə saxlanılır, dindarlar və yerli icra nümayəndələri tərəfindən iməciliklər keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 noyabr tarixli qərarına əsasən qəbirüstü məzarların vahid və standart formada olması təsdiq edilib.

Dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi məqsədilə hər ay icma rəhbərlərinin iştirakı ilə tədbirlər təşkil olunur. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşları vaxtaşırı məscidlərdə olur, yas mərasimlərinin düzgün aparılması, dini fəaliyyətlə məşğul olanların vahid geyim formasına riayət etmələri, dini və məzhəb ayrı-seçkiliyinə yol verilməməsi ilə bağlı tədbirlər görülür. Nəticədə, məscidlərdə İslam dini olduğu kimi təbliğ edilir, dini əsaslara uyğun ibadətlər təşkil olunaraq tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. Görülən işlərin nəticəsi olaraq uzun müddətdir ki, muxtar respublikada müxtəlif məzhəblərə məxsus şəxslərin məscidlərdə birgə ibadət etmələri təmin olunub. Məscidlərdə axundlar tərəfindən namazların və eləcə də cümə namazlarının təşkili dini qaydalara uyğun aparılır. Vaxtilə bu sahədə olan pərakəndəliyi aradan qaldırmaq, İslam dininin xurafatdan uzaq, olduğu kimi təbliğinə nail olmaq üçün dini mərasimləri idarə edən 278-i kişi, 180-i isə qadın olmaqla, 458 dini fəaliyyətlə məşğul olan şəxs attestasiyadan keçirilib, bunlardan 250-si kişi, 135-i isə qadın olmaqla, 385 nəfərə vəsiqələr verilib. Qeydiyyatdan keçənlər iki ildən bir ödənişsiz olaraq yay və qış fəslinə uyğun iki dəstdən ibarət vahid geyim forması ilə təmin olunurlar.

Naxçıvanda ali dini təhsilli kadrların hazırlanması istiqamətində də ciddi addımlar atılır. 2015-ci ildən etibarən “Naxçıvan” Universitetində Dinşünaslıq ixtisası açılaraq fəaliyyətə başlayıb. Bununla yanaşı, dini fəaliyyətlə məşğul olanların biliklərinin artırılması da diqqətdə saxlanılır. Dini təhsilə meyilli olanlar üçün Naxçıvan şəhər “Sarvanlar” məscidində qadın və kişilərdən ibarət müvafiq təkmilləşdirmə kursları təşkil olunub. 2014-cü ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Bu komissiyalar da insanlar və dinlərarası dialoqa öz töhfəsini verir. Naxçıvanda fəaliyyət göstərən dini icmaların işinin yaxşılaşdırılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir.

Muxtar respublikada milli-mənəvi dəyərlərin təbliği, qeyri-ənənəvi dini cərəyanlara və radikal qruplara qarşı ideoloji səddin yaradılması diqqət mərkəzində saxlanılır. Bu gün Naxçıvanda bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində də formalaşdırılmış model özünəməxsusluğu ilə seçilir. Zaman keçdikcə ulu öndərimizin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, müdrik tövsiyələrin yeri və rolu istər ölkəmizdə, istərsə də muxtar respublikamızda daha aydın görünür.

Ölkəmiz dünyada İslam həmrəyliyinə mühüm töhfələr verir. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli”, Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması dini həmrəyliyə göstərilən diqqətin nəticəsidir. Tutduğumuz yol dinlərarası həmrəylik yoludur. Bu yolun əsasını qoyan ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Biz düz yolla – haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik... Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır”.***

***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin mətbuat xidməti***

## Türkiyə mətbuatında Xocalı soyqırımı ilə bağlı Haçadağa təşkil olunan yürüşə geniş yer verilib




*Fevralın 24-də Xocalı soyqırımının iyirmi altıncı ildönümü münasibətilə Türkiyənin müxtəlif bölgələrindən gələn 26 alpinist və Naxçıvan Muxtar Respublikasının Hava və Ekstremal İdman Növləri Federasiyası İdman Klubunun 11 üzvü Haçadağa yürüş təşkil ediblər.*

Qardaş ölkə mətbuatında bununla bağlı geniş informasiyalar verilib. Belə ki, *milliyyet.com.tr, habertürk.com, mynet.com, aa.com.tr, beyazgazete.com, sondakika.com, diyadinnet.com, haberler.com, konyaninsesi.com.tr, pusulahaber.com.tr* və *yenihaberden.com* saytlarında “Dağçılar Xocalı qurbanları üçün dırmandı” sərlövhəli material və yürüş zamanı çəkilən fotoşəkillər, *youtube.com* saytında isə videomaterial yerləşdirilmişdir.

Saytlarda dərc olunan informasiyalarda qeyd olunur ki, türkiyəli dağçılar Xocalı soyqırımı şəhidlərinin xatirəsini Azərbaycanın Naxçıvan Muxtar Respublikasındakı Haçadağın zirvəsində andılar. 6 saata zirvəyə çatan idmançılar burada “Xocalı şəhidlərini hörmətlə və rəhmətlə xatırlayırıq” yazılı posterləri açaraq soyqırımı qurbanlarına ehtiramlarını bildiriblər.

Türkiyə-Azərbaycan Dərnəyi İqdır şöbəsinin müdiri İlteriş Kağan Daşqınsu jurnalistlərə açıqlamasında bildirmişdir ki, “Azərbaycan ilə köklərimiz, mədəniyyətimiz, dilimiz bir olduğu kimi, sevincimiz və kədərimiz də birdir. Azərbaycanın kədərini bölüşmək və soyqırımına məruz qalan qardaşlarımızı anmaq məqsədilə Haçadağın zirvəsinə qalxdıq. 26 il əvvəl ermənilər tərəfindən Xocalıda törədilən soyqırımında şəhid olan qardaşlarımızı rəhmətlə xatırlayırıq. Biz Azərbaycanın bu haqq işində hər zaman yanındayıq. Gələcək illərdə də Xocalı soyqırımının ildönümlərində Haçadağa yürüş təşkil etməyi nəzərdə tuturuq. Məqsəd bütün dünyanın diqqətini Xocalı soyqırımına yönəltməkdir”.

İdmançılardan Lətif Ayyıldız isə bildirmişdir ki, Xocalı şəhidlərini rəhmətlə anır, bu dəhşətli soyqırımı törədənləri nifrətlə qınayırıq.

**“Şərq qapısı”**





***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini fevral ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

## Fevral ayında səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində Şərur rayon Ərəbyengicə kənd həkim ambulatoriyası əhalinin istifadəsinə verilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə ilkin vərəm intoksikasiyasını təyin etmək üçün 800 doza tuberkulin, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan dərman preparatları, Genexpert cihazı (vərəm çöplərinin ilkin təyini) üçün reaktivlər, tibbi materiallar, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları gətirilib.

Muxtar respublikamızın səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. Bir həkim və bir orta tibb işçisi Bakı şəhərindəki tibb müəssisələrində, 2 həkim Naxçıvan şəhərindəki tibb müəssisələrində iş yerində təcrübə, 1 həkim Türkiyə Respublikası 19 Mayıs Universitetinə ixtisası üzrə, 30 nəfər mama Naxçıvan Tibb Kollecində təkmilləşmə kursu keçmək üçün göndərilib.

Fevral ayında orta tibb işçilərinin sertifikasiya imtahanı keçirilib, imtahanda 66 orta tibb işçisi iştirak edib, onlardan 32 nəfəri uğurlu nəticəyə nail olub. İmtahanda iştirak edən 12 nəfər orta tibb işçisindən 10 nəfəri müvafiq səhiyyə müəssisələrində işləmək hüququ qazanıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən fevral ayı ərzində 11 nəfər Bakı şəhərinin Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 18 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 25 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## *“Naxçıvan dialekt və şivələrinin tədqiqi məsələləri”* adlı monoqrafiya çapdan çıxıb




*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın “Naxçıvan dialekt və şivələrinin tədqiqi məsələləri” adlı monoqrafiyası işıq üzü görüb.*

Kitabın elmi redaktoru və ön sözünün müəllifi AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, rəyçisi isə filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarovdur.

Üç fəsil, nəticə, xülasə və ədəbiyyat siyahısından ibarət olan yeni nəşr Azərbaycan dilinin dialektologiyası fonunda Naxçıvan bölgəsinə həsr olunub. Monoqrafiyada Naxçıvanın dialekt və şivələrinin, zəngin dil faktları əsasında söz yaradıcılığının müqayisəli-tipoloji, struktur-semantik təhlili verilib, həmçinin ədəbi dillə əlaqəsi və digər bu kimi məsələlər ətraflı araşdırılıb.

Tədqiqat əsəri Azərbaycan dilinin dialektologiyası, ədəbi dilimizin tarixi, lüğətçilik, şifahi söz sənəti, o cümlədən xalqımızın soy-kökü, etnoqrafiyası tarixi baxımından xüsusilə əhəmiyyətlidir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

Şəhidlik zirvəsi

# Gənclərə örnək ömür yolu



***Düz 26 ildir ki, fevral ayını qarşılayanda qeyri-ixtiyari tariximizin qanlı səhifəsini – Xocalı soyqırımını xatırlayırıq. Ağrı ilə, acı ilə. Düz 26 ildir ki, Xocalı boyda ağrını ürəyimizdə gəzdiririk. Ötən il isə fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri bütün cəbhəboyu irimiqyaslı təxribatlar törətmək məqsədilə müxtəlif istiqamətlərdə mövqelərimizə soxulmağa cəhd göstərdilər. Cəbhənin Xocavənd-Füzuli istiqamətində əlverişli mövqeləri ələ keçirmək istəyən düşmənlə qoşunlarımız arasında ağır döyüş toqquşması baş verdi. Bu istiqamətdə pusquda duran bölmələrimiz düşmən hücumunun qarşısını cəsarətlə alaraq onu geri çəkilməyə məcbur etdi. Təxribatın qarşısını alarkən 5 hərbi qulluqçu şəhid oldu. Onların arasında Haşımlı Tural Əbdül oğlu da var idi. Ana torpaq öz şəhidlərini ağuşuna aldı.***

### *Ot kökü üstə bitər*

Müstəqilliyimizin qazanılması və qorunması uğrunda bu günə qədər bir çox hadisələrin şahidləri və şəhidləri olduq. Kimimiz valideynlərimizi, kimimiz bacı-qardaşımızı, kimimiz övladımızı itirdik. Lakin mübarizə əzmimizi, birliyimizi, əqidəmizi, Vətənə olan sədaqətimizi itirmədik. Güclü ordu qurmağa və bu ordunu peşəkar zabit kadrları ilə, Vətəninə, elinə, obasına bağlı əsgərlərlə komplektləşdirməyə nail olduq. Ailələrdə böyüyən övladlar vətənpərvərlik ruhunda tərbiyə olundular. Vətəni qorumaq eşqi, işğal olunan torpaqları mənfur düşməndən azad etmək istəyi neçə-neçə gəncin yolunu hərbi təhsil ocaqlarından saldı.

1988-ci il dekabrın 27-də Ordubad rayonunun Dırnıs kəndində zəhmətkeş bir ailədə dünyaya göz açan Tural Haşımlı da atasının göstərdiyi yol ilə gedirdi. O yol Vətənə məhəbbət yolu idi. Erkən yaşlarından əkin-biçin işlərində atasına dayaq olan Tural yaxşı anlayırdı ki, torpağı qorumasan, əkib-becərməyə dəyməz. Torpaqların 20 faizi işğal altındadırsa, necə rahat olmaq olar ki?! Düşmən ana torpaqlarımızda necə rahat gəzə bilər ki? Axı Qarabağ Azərbaycanın əzəli və əbədi ata-baba yurdudur! O yerləri ömründə bircə dəfə görməsə belə, nə fərqi var, axı oralar Vətən torpağıdır! Çoxsaylı suallar beynini didir, rahatlıq tapmırdı. Qəti qərarını verdi. Atasına, müəllimlərinə seçimini dedi. Qanlı-qadalı günlərin şahidi olmuş Əbdül kişi onu Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə gətirdi.

Atası Əbdül Haşımlı o günləri xatırlayaraq deyir ki, hərdən gedib məktəbə kənardan baxardım, Turalı görmək üçün. Amma yaxınlaşmazdım. Fikirləşirdim ki, qoy indidən bizdən ayrı qalmağa hazır olsun.

Yeri gəlmişkən, ötən əsrin 90-cı illərində Vətənimizin başını qara buludlar alanda bir çox vətənpərvər eloğlumuz kimi Əbdül kişi də düşmənlə qarşı-qarşıya idi. Vətən torpaqlarını qorumaq əzmi hər kəsi bir yumruq kimi birləşdirmişdi. Mənfur düşmən Naxçıvana bir neçə istiqamətdən hücum etsə də, məqsədinə yetmədi. Sədərəyi güllə yağışına tutan düşmən ərazini xarabazarlığa çevirsə də, insanların əzmini qıra bilmədi. O vaxt indiki qədər texnika da yox idi. Lakin insanların qəlbindəki Vətən eşqini susdurmaq, yox etmək mümkün deyildi. Bu hadisələr baş verəndə Tural çox kiçik idi. Lakin atası Əbdül kişi üçün düşmən çəpəri idi, gələcəyin qəhrəmanı idi. İndiki gənc nəsil o ataların övladlarıdır. Qəhrəman ataların, şəhid ataların, vətənpərvər ataların...

Əbdül Haşımlı: – O vaxt yığışıb məhlə-məhlə dayaq dəstələri yaradırdıq. Köməksiz bir vəziyyətdə idik. Mənim elə o vaxtdan arzum övladımı hərbçi görmək idi. Arzuladığım oldu, özü də bu peşəni sevdi və seçdi. Tural üçün bundan doğru seçim indi də təsəvvür edə bilmirəm. Babası Haşımov Haşım Əbdül oğlu Böyük Vətən müharibəsində iştirak edib. Onun da Turalın həyatında böyük rolu olub. Necə deyərlər, ot kökü üstə bitər.

### *Torpaq – uğrunda ölən varsa, Vətəndir*

Hərbi Liseyin 2007-ci ildə növbəti buraxılışı zamanı xeyir-dua alan gənclər Vətənə sədaqətlə xidmət edəcəklərinə, göstərilən etimadı doğruldacaqlarına söz verib Naxçıvan torpağından paytaxta – Bakı şəhərinə yola salınırlar. O məzunların arasında Tural Haşımlı da var idi. Doğma od-ocaqdan, liseydən ayrılmaq asan deyildi. Amma qarşıda onu daha məsuliyyətli illər gözləyirdi. Təhsilini davam etdirməli, peşəkar zabit kimi formalaşmalıydı. Bu məqsədlə də inandığı yola addımlarını qətiyyətlə atır. Deyirlər, niyyətin hara, mənzilin ora. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib xidmətə başlayır. Hərb peşəsi digər peşələrə bənzəməz. Bu peşəni qəlbən sevmək lazımdı. Həmin peşə Turalın da ruhuna hopmuşdu, boyuna biçilmişdi sanki.

14 yaşında ikən seçimini edən və bu yolda inamla addımlayan Tural, nəhayət, istəyinə qovuşmuşdu: baş leytenant rütbəsində tabeliyində olan əsgərlərlə, silahdaşlarıyla birgə Vətən torpaqlarının keşiyində dayanmışdı. İrəli baxırdı həmişə. Çünki baxdığı başqa ölkənin torpaqları deyil, ana torpaq idi. O torpaq hər bir azərbaycanlı kimi Tural Haşımlını da çəkirdi. Aprel qələbəsi hər kəs kimi Turalı da qürurlandırmışdı. Erməni təxribatının qarşısını alarkən düşmənin layiqli cavabını verən ordu bu yolda şəhid də vermişdi. Onlardan biri də Heydər Əliyev adına Hərbi Liseyin məzunu Qabil Orucəliyev idi.

Aprel döyüşlərindəki məğlubiyyəti həzm edə bilməyən Ermənistan rəhbərliyinin bu sindromdan qurtulması üçün revanş arzusunu gerçəkləşdirməyə ehtiyacı vardı. Azərbaycanın hərtərəfli hərbi-texniki və mənəvi-psixoloji üstünlüyü şəraitində erməni gənclərinin Qarabağda nahaqdan ölmələrinə Ermənistan cəmiyyətinin daim artan etirazları mövcud rejimi ciddi narahat edirdi. Digər tərəfdən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdış Ermənistanda ciddi təşvişə səbəb olmuşdu. Bu qayıdışın coğrafiyasının genişlənəcəyindən qorxan ermənilər təxribatlar törətməklə "güclərini" göstərməyə cəhd edirdilər. Və növbəti belə cəbhəboyu irimiqyaslı təxribatı Ermənistan silahlı qüvvələri fevralın 24-dən 25-nə keçən gecə törətdi. Azərbaycan hərbçiləri düşmənin qarşısını qətiyyətlə alıb onu geri çəkilməyə məcbur etdilər. Qarşı tərəf çoxsaylı itki verdi. Təxribatların qarşısını alarkən Tural Haşımlı şəhid oldu. Onun nəşi fevralın 28-də doğulduğu torpağa gətirildi. Şəhidi qarşılamaq üçün yüzlərlə insan hava limanına axışmışdı. Doğmaları, dostları, tanışları, onu tanıyan, tanımayan hər kəs. Muxtar respublika sakinləri Vətən uğruna canını fəda edən, üçrəngli, müqəddəs bayrağa bükülərək geri dönən şəhidini qarşılamaq üçün toplaşmışdılar. Bu, insanların Vətən naminə birliyinin, əzminin göstəricisi idi. Bu, xalqın öz şəhidinə sonsuz ehtiramının ifadəsi idi. Tural Haşımlının şücaəti qəlbləri riqqətə gətirmişdi. "Qarabağ bizimdir, bizim olacaq!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları ilə kiçikdən-böyüyə hər kəs küçələrə axışmışdı.

Atası Əbdül Haşımlı: – Camaat onu elə qarşıladı ki, mən bunu yadımdan çıxara bilmərəm. Həm dövlətin, həm insanların dəstəyi mənə dayaq oldu. Naxçıvandakı izdihamı görəndə anladım ki, o, tək mənim yox, bütün elin oğludur.

Anası Gülnarə Haşımlı: – Bütün xalq onu sevdi. Qəhrəman kimi böyümüşdü, qəhrəman kimi də şəhidlik məqamına qovuşdu. Mən bir ana kimi Turalla qürur duyuram, düzdür, o, bu gün həyatda yoxdur, amma qürur duyuram ki, o, Vətən yolunda şəhid oldu. Vətən sağ olsun! Qoy Vətənimiz heç vaxt yağı düşmənə qismət olmasın. Ermənilər də bilsinlər ki, biz gec-tez torpaqlarımızı geri qaytaracağıq.

Əsl Azərbaycan qadını! Göz yaşı deyil, düşmənə nifrət yağdırır baxışları ilə... Gülnarə ana övladını itirib, amma qürurunu, vətəndaşlıq borcunu itirməyib. Bir ana üçün çətindir övlad itkisi, amma mövzu Vətən torpaqlarını yağı düşməndən qorumaqdırsa, o zaman deməyə bircə söz qalır, təki Vətən sağ olsun.

Vətən üçün doğulub Vətən üçün ölənlər nə xoşbəxtdir. Əbdül kişinin ailəsində böyümüş oğul bütün Azərbaycanın övladı oldu. Onu bütün Azərbaycan tanıdı. Hər bir ailədə adı qürurla səsləndi: Tural Haşımlı.

Erməni təxribatının qarşısını alarkən şəhidlik məqamına yüksəlmiş Azərbaycan Ordusunun hərbi qulluqçuları, o cümlədən Haşımlı Tural Əbdül oğlu Vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən fədakarlıq və şücaət göstərdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının "Şücaətə görə" medalı ilə təltif olunub.

Bu gün Haşımlılar ailəsində yenə bir körpə böyüyür: Tural Haşımlı adında. Üzünü görmədiyi, səsini duymadığı qəhrəmanın adını daşıyan 5 aylıq balaca Tural Tanrının ərməğanıdır. Düşmən sevinməsin qoy, hələ neçə Turallar yetişdirəcək bu torpaq, hələ neçə qəhrəmanlar böyüdəcək şəhid ataları.

*Üçrəngli bayrağımız tezliklə Qarabağda – Şuşada, Xankəndidə dalğalanacaq. Bugünkü Azərbaycan artıq 90-cı illərin Azərbaycanı deyil. Dünya miqyasında öz nüfuzu, iqtisadi inkişafı ilə seçilən Azərbaycan bu gün müzəffər orduya sahibdir. Vətən uğrunda son damla qanına qədər vuruşmağa hazır olan qəhrəman oğullara sahibdir. Biz əzəli və əbədi ata-baba yurdlarımıza qayıdacağıq. O gün uzaqda deyil.*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

***Naxçıvan şəhərinin 2018-ci il üçün Gənclər Paytaxtı seçilməsi ilə bağlı muxtar respublikanın paytaxtında bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulub. Tədbirlər planına uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən idarə və təşkilatların əməkdaşları arasında "Nuh yurdu" intellektual oyununun Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.***

## İdarə və təşkilatların əməkdaşları arasında *"Nuh yurdu"* intellektual oyunu keçirilib



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən oyunda 8 komanda mübarizə aparıb. Oyunun keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olub.

Hər bir oyunda 4 komanda iştirak edib. Oyun 5 raunddan ibarət olub və hər bir raundda 5 mövzu oynanılıb. Hər sual öz çətinlik səviyyəsinə görə nominallaşdırılıb, mövzuya uyğun sıralanıb.

Yekun nəticəyə əsasən Naxçıvan şəhərinin "Turan" komandası intellektual oyunun qalibi olub. Digər iki pillədə isə Sədərək rayonunun "Əjdəkan" və Kəngərli rayonunun "Kəngərli" komandaları qərarlaşıblar.

Sonda qalib komandalara diplom, plaket və oxunması zəruri olan kitablar təqdim olunub.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidenti 2018-ci il 31 yanvar tarixli "2018-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sərəncama əsasən ölkənin mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən bir sıra gənclərə Prezident mükafatı verilib. Onlar arasında Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Zümrüd Səfərova da yer alıb. Tədbirdə Zümrüd Səfərovaya mükafatı Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov təqdim edib.

## Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası fəaliyyətə başlayıb



***Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yaradılması ilə əlaqədar təsis iclası keçirilib.***

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aparatının əməkdaşları, rayon (şəhər) Gənclər və İdman idarələrinin rəisləri və kikboksinq idman növü üzrə məşqçi-müəllim heyətinin iştirakı ilə baş tutub. İclasda çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə yaradılan federasiyanın idmanın bu növü üzrə fəaliyyətinin daha mütəşəkkil xarakter alması və bu sahədə kütləviliyin artırılması baxımından əhəmiyyətindən danışıb. O, bu idman növünün muxtar respublikada gələcək inkişafı ilə bağlı görüləcək tədbirlərdən bəhs edib.

Nazir qeyd edib ki, yeni yaradılan federasiyanın əsas fəaliyyət istiqamətləri muxtar respublika gəncliyinin vətənpərvərlik ruhunda və sağlam mühitdə formalaşdırılması, kikboksinq üzrə idmançı və məşqçi heyətinin hazırlıqlarının daha da gücləndirilməsindən ibarətdir. Həmçinin bu sahədə peşəkarlığın artırılması və muxtar respublika idmançılarının ölkə və beynəlxalq miqyaslı idman yarışlarında iştirakının təmin edilməsi federasiyanın əsas iş prinsiplərindən biri olacaq. Eyni zamanda federasiyanın əsas məqsədlərindən biri də rayonlarda yeni bölmələrin fəaliyyətə başlaması, fəaliyyət göstərən bölmələrin isə işinin daha da yaxşılaşdırılmasıdır.

Sonra gündəlikdə duran məsələlər müzakirə edilib, məşqçi-müəllim heyətinin rəy və təklifləri dinlənilib. İclas Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yaradılması barədə qəbul edilmiş qərar layihəsinin oxunuşu ilə başa çatıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Şəhərdaxili nəqliyyatda intizam tədbirləri gücləndirilib

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində keçirilən seminar-müşavirəni giriş sözü ilə idarənin rəis əvəzi İlkin Məmmədov açıb. Müşavirədə nazirliyin şöbə müdirləri Yasin Əliyevin və Elxan Novruzovun çıxışları dinlənilib.

Çıxışlarda vurğulanıb ki, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsi öz işini günün tələbləri səviyyəsində qurmağa çalışaraq marşrut xətlərinin təkmilləşdirilməsi, sərnişindaşımaya cəlb edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə edilməsi, muxtar respublika ərazi və şəhərlərarası marşrut xətti üzrə sərnişinlərə nümunəvi nəqliyyat xidmətinin göstərilməsi və idarənin 2018-ci il və sonrakı illər üzrə fəaliyyətinin davamlı inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ardıcıl olaraq tədbirlər həyata keçirir. Sürücülər üçün müntəzəm olaraq maarifləndirmə tədbirləri təşkil olunur.

Bildirilib ki, nazirliyin reyd komissiyası tərəfindən yoxlamalar keçirilib, marşrut qrafikinə əməl olunması, intervalın qorunması üçün sürücülər təlimatlandırılıblar.

**✍ Nail ƏSGƏROV**

*İtmişdir*

Rzayev Səbuhi Yaqub oğlunun adına Culfa rayonunun Gülüstan kəndində yerləşən evin MH-0021423 inventar nömrəli reyestrdən çıxarışı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 182